

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 33 (23.675)

*18 fevral 2021-ci il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Ağbulaq Xizək Mərkəzi istifadəyə verilib



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev demişdir: ***“Turizm sahəsi həm regionların inkişafı, həm də ölkənin iqtisadi potensialının möhkəmlənməsi üçün, Azərbaycanın imici, dünyaya inteqrasiyası üçün çox mühüm bir vasitədir”***. Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın bütün sahələrində olduğu kimi, turizm sektorunda da sürətli inkişafa nail olunub. Şahbuz rayonunun Ağbulaq kəndi ölkəmizdə kompleks turizm infrastrukturunun tətbiq olunduğu ilk kənddir. Əlverişli təbii-coğrafi şəraiti burada turizmin bir çox növünün inkişafına imkan verir. “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks işlər görülmüş, Ali Məclis Sədrinin 2018-ci il 29 noyabr tarixli Sərəncamı ilə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılmışdır.



Fevralın 17-də Ağbulaq Xizək Mərkəzi istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak etmişdir.

Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat naziri Tapdıq Əliyev çıxış edərək demişdir: Muxtar respublikada sahibkarlığın inkişafı ilə bağlı həyata keçirilən tədbirlər, biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması geniş sahibkarlar sinfini formalaşdırmışdır. Ekoloji təmiz havası, tarixi və təbiət abidələrinin mövcudluğu, unikal təbii müalicə mərkəzlərinin olması, müasir yol-nəqliyyat və mehmanxana infrastrukturunun yaradılması muxtar respublikada turizmin inkişafı üçün də əlverişli şərait yaratmışdır. Yeni investisiyaların cəlbi, xidmətlərin keyfiyyətinin daha da yaxşılaşdırılması turizmin inkişafına əlavə stimul vermişdir. Qədim diyarda turizmin mövsümiliyinin aradan qaldırılması, ilboyu turizm xidmətlərinin təqdim olunması və turist cəlbediciliyinin artırılması qış turizminin inkişafına da geniş imkanlar açır. Bu cəhətdən Ağbulaq Xizək Mərkəzinin yaradılması istər iqtisadi, istərsə də sosial cəhətdən böyük əhəmiyyətə malikdir. Tapdıq Əliyev muxtar respublikanın sosial-iqtisadi tərəqqisinə, sahibkarlıq fəaliyyətinin inkişafına, turizm potensialının və əhali rifahının yüksəldilməsinə göstərilən diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Ağbulaq kəndində Xizək Mərkəzinin istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Ağbulaq kəndi Sovetlər Birliyi dövründə də havasına və təbiətinə görə mütəxəssislərin diqqətini cəlb etmiş, burada məktəblilərin yay düşərgələri təşkil olunmuşdu. Muxtar respublikanın müxtəlif məktəblərindən olan şagirdlər yay tətilini burada keçirib, kəndin təbiəti ilə tanış olurdular. Lakin 1990-cı illərin acı nəticələri muxtar respublikanın digər əraziləri kimi, kəndə də təsir etmiş, infrastruktur dağılmış, yaşayış çətinləşmiş, kənd əhalisi başqa yerlərə köçmək məcburiyyətində qalmışdı. Bir sözlə, kəndi yenidən qurmaq, inkişaf etdirmək zərurətə çevrilmişdi. Ağbulaqda bu tədbirlərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyin yaradılması ilə başlandı. Daha sonra kəndin ehtiyacları öyrənildi və turizm istirahət bölgəsi kimi qurulmasına qərar verildi. 2013-cü ildə kənddə quruculuq işlərinə başlanılıb, məktəb, kənd və xidmət mərkəzləri tikilib, yol, elektrik, qaz və digər infrastruktur yenilənib, insanların rahat yaşayışı üçün lazımi şərait yaradılıb. 2018-ci ildə isə Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsi yaradılıb. Turizmi daha da inkişaf etdirmək üçün kənddəki istirahət mərkəzinin yaxınlığında dağ-xizək mərkəzinin qurulması qərara alındı. Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşməsi, qış aylarında qar ehtiyatının çox olması və dağ-xizək mərkəzi üçün müvafiq landşafta malik olması bu ərazinin seçilməsinə əsas verdi.

Ali Məclisin Sədri demişdir: 2 il ərzində qurulan dağ-xizək mərkəzi bu gün muxtar respublika sakinlərinin istifadəsinə verilir. Bunun əhəmiyyəti ondan ibarətdir ki, birinci, vaxtilə bir o qədər də yararlı olmayan bu ərazilərdə muxtar respublikanın əhalisinə, turistlərə xidmət edəcək istirahət mərkəzi yaradılıb. Digər əhəmiyyəti ondan ibarətdir ki, burada yeni iş yerləri açılıb, ərazi muxtar respublikanın sərvətinə çevrilib. Bir sözlə, Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması tək bir kəndin, muxtar respublikanın deyil, ümumilikdə, ölkəmizin inkişafına xidmət edəcəkdir. Ağbulaq həm yerli, həm də xarici turistlər üçün cazibədar məkana çevrilib. Təmiz hava, təbii qida, yaradılan lazımi infrastruktur imkan verəcək ki, mərkəz muxtar respublikanın inkişafında xüsusi rol oynasın. Bura inkişaf etdikcə dövlət büdcəsinə vergilər ödəniləcək, bunun da hesabına yeni iş yerləri açılacaqdır. Həm Ağbulaq, həm də ətraf kəndlərdə yaşayan insanlar daimi işlə təmin olunacaqlar. Bunların hamısı isə inkişafın davamlı olmasının göstəriciləridir. Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində işlər bundan sonra da davam etdiriləcəkdir. Mərkəz qış aylarında dağ-xizək, yay aylarında isə dağ turizmini seçənlərə xidmət göstərəcək.





Kəndin gözəl təbiəti, səfalı yerləri insanların bura axınına şərait yaradacaq.

“Ağbulağın turizm bölgəsinə çevrilməsi üçün 7 ilə yaxın vaxt sərf olunub. Ötən illər ərzində bu işləri həyata keçirmək üçün insanlar zəhmət çəkib, təşəbbüs göstəriblər”, – deyən Ali Məclisin Sədri bu işdə əməyi olanlara təşəkkür etmişdir. Qeyd olunmuşdur ki, turizm bölgəsi muxtar respublika büdcəsi və özəl bölmədə fəaliyyət göstərən şirkətlərin vəsaiti hesabına yaradılmışdır. Ona görə də kollektiv və aid təşkilatlar tikilənləri, qurulanları qorumalı, mərkəz uzun illər muxtar respublikaya xidmət göstərməli, ərazinin təbiəti daha da zənginləşdirilməlidir. Mərkəz gələcəkdə muxtar respublikanın inkişafına töhfə olacaq bu cür bölgələrin yaradılmasına nümunə olacaqdır.

Ali Məclisin Sədri aidiyyəti üzrə tapşırıqlar verərək demişdir: Kəndin turizm bölgəsinə çevrilməsi üçün layihə həyata keçirildi, evlər yenidən quruldu, həyətlər abadlaşdırıldı. Digər layihəni isə Naxçıvan Muxtar Respublikası Dövlət Energetika Xidməti həyata keçirəcək, kənddəki bütün evlər günəş panelləri, suqızdırıcıları ilə təmin olunacaqdır. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyi isə xizək mərkəzində təhlükəsizlik tədbirlərinə diqqəti artırmalıdır. Gənclər və İdman Nazirliyi Gənclər Fondu ilə birlikdə gəncləri buraya cəlb etməli, müxtəlif idman tədbirləri keçirilməli, xizəkçilik idman növünə maraq artırılmalıdır. Kənddə yay turizmi üçün də tədbirlər görülməli, kanatlardan istifadə etməklə zəngin təbiət turistlərə tanıdılmalıdır. Həmçinin kənddə arıçılıq da inkişaf etdirilməli, keyfiyyətli və təbii bal istehsal olunmalıdır. Burada bir gün keçirmək istirahətin ən gözəl formasıdır. Ona görə də daxili turizm inkişaf etdirilməlidir ki, əhali asudə vaxtını səmərəli keçirsin. Sağlam həyat üçün təbiətdə olmaq, açıq havada gəzmək, idman etmək lazımdır. Ərazi bütün bunlara imkan verir. Şahbuz Rayon İcra Hakimiyyəti tikilənlərin qeydiyyatını aparmalı, Ağbulaq Xizək Mərkəzinin saytı yaradılmalı, Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin səhifəsində mərkəz təbliğ olunmalı, xizəksürmə zamanı təhlükəsizlik qaydalarına riayət edilməli, yerli mütəxəssislər bacarıqlarını təkmilləşdirməli, Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaşıllıqları artırmalıdır.

Ali Məclisin Sədri demişdir: Kənddə ailə təsərrüfatları inkişaf etdirilməli, bu sahədə bacarığı olanlara dəstək göstərilməlidir. Onların istehsal etdikləri məhsullar yüksək səviyyədə qablaşdırılaraq turistlərə təqdim olunmalıdır. Turistik bölgənin əhalisinin gəlirləri, əsasən, turistlərə məhsullarını satmaqla əldə olunur. Mərkəzdə böyük yeməkxana fəaliyyət göstərir. Bura

*Ardı 2-ci səhifədə*

üçün də məhsullar kənd əhalisindən alınmalıdır. Ərazidə müvafiq istehsal sexlərinin yaradılması imkanı da araşdırılmalıdır.

Gənclər adından danışan Çimnaz Abbasova demişdir: “Muxtar respublikamızda uzun illərdir ki, geniş quruculuq işləri həyata keçirilir. Bu gün hara baxsaq, orada müasir məktəb, səhiyyə ocaqları, mədəniyyət obyektləri, gözəl yollar, parklarla qarşılaşırıq. Muxtar respublikada təhsilə çox böyük diqqət və qayğı göstərilir. Bütün bunlar isə gənclərin ictimai həyatda fəal olmasına stimul yaradır. Gənclərin asudə vaxtının səmərəli təşkili də diqqətdə saxlanılır. Onların Ağbulaq İstirahət Mərkəzinə ekskursiyaları asudə vaxtın maraqlı keçməsinə səbəb olub. Bu gün Ağbulaq Xizək Mərkəzinin istifadəyə verilməsi isə istirahətin daha mənalı təşkili ilə nəticələnəcəkdir. İstirahətlə yanaşı, burada xizəkçilər yetişəcək ki, onlar bu idman növü üzrə gələcəkdə ölkəmizi beynəlxalq yarışlarda təmsil edəcəklər. Biz bunu ancaq sosial şəbəkələrdə və televiziyalarda görmüşdük. Bir gün isə Naxçıvanda görməyi xəyal edirdik. Bu gün xəyallarımız gerçəkləşib”. Çimnaz Abbasova Naxçıvanda ilk xizək mərkəzinin yaradılmasına görə Ali Məclisin Sədrinə gənclər adından minnətdarlıq etmişdir.



Mərkəzlə tanışlıq zamanı məlumat verilmişdir ki, kənddə müasir tələblərə cavab verən məktəb binası, kənd və xidmət mərkəzləri, yeni yol, eləcə də Ağbulaq İstirahət Mərkəzi tikilərək istifadəyə verilmişdir. 2018-ci ilin aprel ayından kənddə abadlıq işlərinə başlanılmış, evlər və yardımçı binalar, elektrik, rabitə və qaz təchizatı sistemi yenidən qurulmuşdur. Həmçinin Ağbulaq kəndində yaşıllaşdırma tədbirləri də görülmüş, 15 hektar sahədə ting, 250 hektardan çox sahədə isə toxum əkilmişdir. 2018-ci il iyulun 17-də isə Ağbulaq kəndində xizək mərkəzinin təməlatması keçirilmişdir.

Dəniz səviyyəsindən 2 min metr yüksəklikdə yerləşən mərkəzdə tikinti işləri Fransanın “MND” şirkətinin layihəsi əsasında aparılmışdır. Mərkəzdə uzunluğu 1580, eni 18-30 metr olan dağ-xizək sahəsi, əyləncə və uşaq parkları, 219 metrlik konveyer xətləri, 20 min kubmetr tutumu olan süni göl yaradılmış, 26 sabit, 3 hərəkətli süni qaryaratma sistemi, 1 motor stansiyası, uzunluğu 980 metr olan kanat quraşdırılmışdır ki, onun da başlanğıc və son dayanacaq yeri arasındakı hündürlük fərqi 267 metrdir. Kanat yolunda hər biri 4 yerlik olan 59 oturacaq vardır ki, bu da saatda 1000-dən artıq turistə xidmət etməyə imkan verir.

Ərazidə mərkəz üçün 2 mərtəbəli inzibati bina, hər biri 2 nəfərlik olmaqla, 3 kottec, 1-i inzibati binanın ikinci mərtəbəsində, 1-i isə kanat liftinin sonuncu dayanacağında olmaqla, 2 kafe fəaliyyət göstərir. İnzibati binanın birinci mərtəbəsində qeydiyyat, xizəklərin və müvafiq geyimlərin təhvil verilməsi xidməti göstərilir. Mərkəzdə 25 yeni iş yeri yaradılmışdır.

Mərkəzdə muxtar respublika əhalisinin və turistlərin rahat istirahət etməsi üçün hər cür şərait yaradılmışdır. Bu da muxtar respublikada iqtisadi tərəqqinin, turizmin inkişafına dövlət səviyyəsində göstərilən diqqətin təzahürüdür. Əgər bu günə qədər turistlər daha çox yaz və yay aylarında Naxçıvana gəlirdilərsə, artıq qış fəslini burada keçirmək onlar üçün maraqlı olacaq və Ağbulaqda kənd turizmi ilə yanaşı, qış turizmi də inkişaf edəcək, Ağbulaq Xizək Mərkəzi Naxçıvanın turizm brendinə çevriləcəkdir.

Mərkəzdə təlim keçən türk mütəxəssis Səlahaddin Sunqur demişdir: “İki ildir ki, burada təlim keçirəm. İnsanlar xizək sürməyə çox böyük həvəs göstərirlər. Ümid edirəm ki, yaxın gələcəkdə burada yetişən xizəkçilər beynəlxalq yarışlarda iştirak edəcəklər”.

Sonra Ali Məclisin Sədri kanatla ərazini gəzmişdir.

Səlahaddin Sunqur Ali Məclisin Sədrinə üzərində Ağbulaq Xizək Mərkəzi ilə Ərciyəz Xizək Mərkəzinin simvolu olan hədiyyə təqdim etmişdir.

## Yeni həkim ambulatoriyası kənd sakinləri ilə yanaşı, turistlərə də xidmət göstərəcək





Səhiyyənin inkişafı ölkəmizdə dövlət siyasətinin əsas prioritetlərindəndir. Muxtar respublikamızda da müasir səhiyyə infrastrukturu və kadr təminatı tibbi xidmətin səviyyəsini xeyli yüksəldib. İnsan amilinə verilən dəyərin ifadəsi olan bu tədbirlər muxtar respublikanın bütün yaşayış məntəqələri kimi, ucqar dağ kəndlərini də əhatə edir. Turizm bölgəsi olan Ağbulaqda inşa olunan yeni həkim ambulatoriyası kənd sakinləri ilə yanaşı, turistlərə də müasir səhiyyə xidməti göstərəcək.

Fevralın 17-də Ağbulaq kəndində həkim ambulatoriyası istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov ambulatoriyada səhiyyə xidmətinin təşkili ilə maraqlanmışdır.

Ali Məclisin Sədri demişdir ki, kənddə feldşer-mama məntəqəsinin həkim ambulatoriyasına çevrilməsi burada Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsinin yaradılması ilə əlaqədardır. Çünki buraya hər gün yüzlərlə yerli və xarici turist gələcək. İlkin tibbi yardımın vaxtında göstərilməsi üçün bu ambulatoriya yaradıldı və təcili tibbi yardım avtomobili ilə təmin olundu. Bildirilmişdir ki, əhaliyə ilkin tibbi yardımla turistlərin aldığı travmaların müalicəsi fərqlidir. Ona görə də kollektiv bu sahədə biliklərini artırmalıdır, lazımi xidmət göstərə bilsin.



Ambulatoriyanın baş həkim əvəzi Afaq Ramazanova minnətdarlıq edərək demişdir ki, kənddə kompleks quruculuq tədbirləri aparılanda kənd mərkəzində fəaliyyətimiz üçün yer ayrılmışdı. Lakin kəndimizin inkişafı və böyük turizm bölgəsinə çevrilməsi səhiyyə xidmətinin əhatə dairəsini genişləndirmişdir. Bu gün istifadəyə verilən ambulatoriya müasir tibbi avadanlıqlarla təmin olunmuş, kollektiv üçün hərtərəfli iş şəraiti yaradılmışdır. Biz də çalışacağıq ki, bundan sonra da kənd sakinləri ilə yanaşı, turistlərin də sağlamlıqlarının keşiyində dayanaq.

Məlumat verilmişdir ki, ambulatoriyada baş həkim, stomatoloq üçün kabinə, palata, mama, manipulyasiya, qeydiyyat, texniki işçi otaqları və aptek vardır. Səhiyyə ocağı stomatoloji qurğu, quruducu şkaf, peyvənd və təcili yardım çantaları, mikroskop, sentrifuqa və digər tibbi avadanlıqlarla təchiz olunmuşdur.

Sonra Ali Məclisin Sədri “Fiat-Doblo” markalı təcili tibbi yardım avtomobilinin açarını təqdim etmişdir.

Ali Məclisin Sədri həkim ambulatoriyasının icbari tibbi sığortaya daxil edilməsi, peyvənd və patronaj xidmətlərinin vaxtlı-vaxtında göstərilməsi, Fövqəladə Hallar Nazirliyi ilə birlikdə dağ-xizək travmalarının müalicəsi üçün təlimlərin keçirilməsi barədə tapşırıqlar vermişdir.

Binada fərdi istilik sistemi quraşdırılmışdır.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

## Seminar-müşavirə keçirilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı”na uyğun olaraq Şahbuz rayonunda Rayon İcra Hakimiyyətinin, Kənd Təsərrüfatı və Ekologiya nazirliklərinin, Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin birgə təşkilatçılığı ilə torpaq mülkiyyətçiləri və sahibkarların iştirakı ilə seminar-müşavirə keçirilib.

Seminar-müşavirəni giriş sözü ilə Şahbuz Rayon İcra Hakimiyyətinin ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Söhrab Kərimov açaraq tədbirin əhəmiyyəti barədə məlumat verib.

Kənd Təsərrüfatı Nazirliyinin şöbə müdiri Xaliq Abbasov bildirib ki, torpaqların münbitliyinin azalmasının qarşısını almaq üçün, ilk növbədə, suvarma düzgün təşkil olunmalı, taxıl əkinində şırım üsulu ilə əkinə diqqət yetirilməli, aqrotexniki tədbirlərin düzgün aparılması, üzvi və mineral gübrələrin vaxtında və normada verilməsinə xüsusi diqqət yetirilməli, növbəli əkin sistemi tətbiq olunmalıdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin şöbə müdiri Tural Əsgərov torpaqların məişət və kimyəvi tullantılarla çirkləndirilməsi, eyni zamanda yay otlaqlarında heyvanların normadan artıq otarılması və hava şəraitinin nəzərə alınmaması səbəbindən səhralaşmaya gətirib çıxarması kimi halların, nəticədə, torpaqların münbitliyinin azalmasına səbəb olduğu barədə məlumat verib.

Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin sektor müdiri Oqtay Məmmədov bildirib ki, muxtar respublikada torpaqların münbitliyinin təmin edilməsi istiqamətində qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi gələcəkdə mövcud torpaq ehtiyatlarından səmərəli istifadə edilməsinə, uzun müddət əkin dövriyyəsindən kənarda qalmış minlərlə hektar torpağın münbitləşdirilməsinə və yenidən əkin dövriyyəsinə qatılmasına səbəb olacaqdır.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

***880 ildir, binə olub nizamlı bir söz bağçası. Qüdrəti, qüvvəti, kəsəri, dəyəri, meyarı ilə bütün maneələrə sinə gərib, sipər çəkib, keçilməyib sədləşibdir, yeri gəlib sərtləşibdir, daim öz şuxluğun qoruyub, əyilməyib bir an belə, qəddi də. Əsrlərin, qərinələrin yağan qarı, boranı, soyuğu, şaxtası üşütməyə, dondurmağa, istisi məşəl olub yandırmağa, soldurmağa, küləyi uçurmağa, yıxmağa cürət etməyib bu bağçanın həmişəbahar güllərini. Nəsillərdən-nəsillərə yayılıb bu güllərin rayihəsi, neçə-neçə könüllərə ilham verib təravəti, bu bağçada gecə-gündüz qaynayıb, qaynadıqca daha da gurlayıb, güllərini, çiçəklərini bir kimsədən kömək ummadan yaşadıbdır dəryalara, dənizlərə sığmayan "Nizami Gəncəvi" adlı hikmət dolu bir ümman. Şairlər, yazıçılar söz mülkünün açarını bu bağçadan axtarıb tapıb, bəstəkarlar musiqi notların kökləyib onun sehrində, məlhəm verib neçə xəstə könüllərə, doğru yol göstərib iş, sənət dalınca gedənlərə, tələsənlərə gözlə, bir az düşün deyib, düzgünlüyə səsləyib insanları, təsəlli verib, ruhlandırıb, ümidləndirib naəlac binəvaları, ədaləti, səxavəti üstün tut hər əməldə, cızığından çıxma, həyatda öz yolun, xəttin, izin olsun, başqasının deyil, öz süfrəndə gözün olsun, oxu, mütaliə et ki, dürr çıxsın ağzından sözlər, səbir et, onsuz da gec-tez əyriləri kəsəcək düzlər, çalış dəyərini qoru ki, kəsərdən düşməyəsən, addımını doğru at ki, büdrəyib sürüşməyəsən – söyləyib...***

**2021-ci il "Nizami Gəncəvi ili"dir**

# 880 yaşlı söz bağçasının həmişəbahar gülləri...



Bu bağçanın həmişəbahar ilk böyük gülüdür "Sirlər xəzinəsi". Dövrün hadisələri fonunda iki insani sifətin məğzin açır, mahiyyətin göstərir, bizə yaxşılıqdan, pislikdən danışır, ədalətli olmağa çağırır, tənbəl, ikiüzlü sifətlərə nifrət, halal zəhmətlə yaşayanlara, haqq yolunu tutanlara rəğbət edir, sadə, səmimi insanlara yüksək məhəbbətini bildirir bu gül. *Yaxşılıq et, parlasın yaxşılığın gövhəri, yaxşını, həm də pisi görən təcrübəlilər pisi bəyənməmişlər, anla ki, zərrə qədər* hikmətli ifadələrlə qərq eyləyir düşüncələr aləminə. Sirli sözlər pıçıldayır: Ömür kitabını aç qarşına, vərəqlə onu bir-bir, tələsmədən, usanmadan, bircə sətir də unutmadan, nəzər eylə, olanları, ötənləri xəyalında canlandır, şübhəsiz, rast gəlməyəcəksən heç də az belə sifətlərə. Çox güman ki, hər kəs kimi, sənin də var zaman-zaman yaxşılığın kimi, pisliyinin toxunduğu insanlar. Mahiyyətini dərindən dərk etsən, təəssüf, peşmançılıq hissləri bürüyəcək səni. Elə isə hələ ki, gec deyil, öncə pis əməldən uzaq durmağa tələs, gözdən iraq düşməyə çalışma əsla yaxşılıq et ki, könül mülkündə olsun payın. *Vurub yıxmaqla deyil ağıllılıq, unutma, gücünü ədalətdən heç zaman uca tutma*, – deyərək haqq yoluna, ədalətə səsləyir "Sirlər xəzinəsi". Sadə bir qarının dili ilə izah edir ki, yaxşı olmaq asandır, şübhəsiz, ondan çətini ədalətli olmağı bacarmaqdır. Nə olursa-olsun, ədalət mizanı əsla şaşmamalı, yəni birinə yaxşılıq etdiyini düşünüb bais olma digərinin haqqına. Hər görülən işdə, atılan addımda balansı qorumaq lazım. Necə deyərlər, çalış elə edəsən ki, nə şiş yansın, nə kabab. Qoy ədalət çırağı daim belə gur yansın, işıq salsın yollara, izlərə, bu günün, sabahın ən mehriban dostu, yoldaşı olsun ədalət. Zira, başqa cür mümkün deyil inkişaf...

Söz bağçasının ikinci böyük həmişəbahar gülüdür "Xosrov və Şirin". Tarixə qısaca ekskursiya edirik bu gülün sehrində, bədii surətlər, ədəbi qəhrəmanlar çıxır qarşımıza. Tərənnüm edilir məhəbbətin böyüklüyü, haqlı olaraq göstərilir ki, hər şeydən üstündür insan ağlı, düşüncəsi. *Əziyyət eyləsən, cəfa görərsən, mehribanlıq etsən, səfa sürərsən*, – söyləməklə əməyə, zəhmətə daim önəm verməyə səsləyir sehrinə dalanları. Eşitməmişsənmi bu məşhur sözü: *"Quyu qazan adam düşəcək özü!"* Bu hikmətli ifadə görün nələr əxz edir bizə. Təbiidir ki, yaradılışdan bəri "quyu qazanlar" silsiləsi olub, olacaq da. Nə qədər ki, həyat var, yaşayış var – yaxşılıq qədər pislik edənlər də tapılacaq mütləq. Amma bəd iş tutanda düşünməlisən ki, başqasına pislik etmək nə qazandırır sənə, çoxumuz bu fikri sözdə desək, ağılda fikirləşsək də, əməl edən azdır, çox təəssüf. Elə "quyu qazanların" sonrakı halını görəndə nəticə çıxarmayanlar da vardır, heyif. Öz mənafeyimizi gəlin çəkək bir kənara. Saf əqidə ilə düşünək. Əgər öz həyatimizdə yaşıllıq, gözəllik arzulayırıqsa, bunu çox asan yolla, çalışmaqla gerçəkləşdirə bilərik. Niyə ömrümüzü başqasının həyatinə daş atmaqla keçirək ki? Sağlam mübarizə aparaq usanmadan, dönmədən. O zaman qazandığımız uğurun da başqa olacaq dad-tamı. Dəqiq biləcəyik bacarığımızın əsl meyarını, çəkisini. Ən əsası isə rahatlıq tapacaq vicdanımız. Unutmayaq: "İnsana qalan insanlıq olacaq. İnsanlığı da var edən vicdandır, əlbət". *Dost qəlbi torpaqdır, ona əl vursan, əlin pak olacaq o zaman, inan* – ən ali insani duyğudur dostluq, torpaq isə müqəddəs varlıq. Necə gözəl yanaşmadır dostu torpağa bənzətmək, elə deyilmi? Hər ikisi yolunda çəkilən zəhmət getmir hədər, itmir, tez bir zamanda daha gözəl şəkildə qayıdır geri. Torpaq da, dost da vəfalıdır, sənin qarşına dünya nemətlərini sərir dost da, torpaq da. Torpaq kimi dostun da qəlbi kövrəkdir, tez küsüb, tez inciyəndir. Niyə də küsməsin ki? Uman yerdən küsərlər. Ona görə gəlin incitməyək nə torpağı, nə də dostu...

Söz bağçasının növbəti böyük gülü – "Leyli və Məcnun". Məhəbbət əfsanəsinin timsalında vicdan və sevgi azadlığı barədə danışır, orta əsrlərdə hökm sürən neqativ hallardan, xüsusilə qadın hüquqsuzluğundan, feodal adət-ənənələrindən söhbət açır, insan adını uca tutmağa, ali məqsədlərə qulluq etməyə, mərd və mübariz olmağa çağırır bu gül. *Xudpəsənd olmayan təmiz bir insan qorxmaz nə yaxşıdan, nə də yamandan* – söyləməklə, xudpəsəndlikdən, eqoistlikdən qaçmağa səsləyir hər kəsi. Xudpəsənd bir insan düşünün, diqqətlə nəzər eyləyin onun danışığına, hərəkətlərinə. Həmin şəxsin yerində olmaq keçdimi heç könlünüzdən, təbii ki, cavabınız olacaq – əsla. Az işləyən, çox danışan da demək olar o kəslərə. Elə insanlar görəndə çalışın o yoldan çəkindirin onu. Xudpəsəndlikdənsə qoy olsun təvazökar. Niyə də yox. Çox danışmaq, özünü tərifləməklə itirdiyi vaxtı həsr etsin işinə. Sözdə deyil, əməldə göstərsə özünü nəticə də olar gözəl, ürəkaçan. Tərif də gələr, xoş söz də eşidər. Ancaq bu dəfə başqalarından. Daha gözəl, daha sanballı, daha layiqli, məntiqli, inandırıcı tərifləṙ. *Bir xərabə görsən, qurmağa tələs, məsləhət belədir, əməyin itməz* – bəli, insanoğlunun qurmaqdır, yaratmaqdır əzəldən amalı. Ancaq naxələf, əhdinə xilaf çıxan, söküb-dağıdan da az deyil, şübhəsiz. Qurub, yaratmaq və söküb, dağıtmaq. Antonimlik təşkil edən iki ayrı qəbildən sözlər. Mənalarında da, əməllərində də böyük uçurumlar, kəskin fərqlər. Qurmağa illər, dağıtmağa isə dəqiqələr lazım. Hünər daşı daş üstünə qoymaq, qurmaq-yaratmaqdır, dağıtmağa nə var ki, elə deyilmi? Mənfurların, cılızların işidir var olanı yox etmək. Dön bir tarixə bax. Dağıtmaqla gözəl xatırlanan çoxdur, yoxsa yaratmaqla?! Elə isə sən də qurub-yaradanlardan olmağa çalış ki, gözəl xatırlanasan...

Dördüncü həmişəbahar böyük gül – "Yeddi gözəl". Adına baxıb dərhal qiymət verməyə çalışma, ətrini duy, lətafətini hiss et sonra. "Yeddi gözəl"in söhbətinə qulaq as. Agah olacaq sənə hökmdar və xalq arasındakı problem. Fitnənin sözlərini sən də Bəhram hökmdar kimi eşit, onun kimi sən də doğrularını, yanlışlarını qoy tərəziyə. Nəticə çıxar. Diqqətlə düşün. Kiməsə qarşı haqsız hərəkətlərin varsa, yubanmadan vaxtında çəkin bu əməllərdən. *Hünər ardınca qoş, xalqa hünər saç, qapılar bağlama, ər ol, qapı aç*, – deyir sənə bu gül. Bu hikmətli ifadəni dinlədikcə canlanır gözlər önündə nələr – müstəqil dövlətimiz. Firavanlıq içində gözəl həyat sürən, mədəni yaşayış səviyyəsində olan xalqımız. Günü-gündən artan sosial-iqtisadi inkişafımız, birliyimiz, bərabərliyimiz. Bütün cəbhələrdə qazandığımız qələbələr və inamlı gələcək. Elə isə sən də özünəməxsus dünyanda gördüyün işlərdə, atdığın addımlarda bu ifadəni çevir həyat ritminə. Çevir ki, mərd, açıqürəkli kimi gözəl insani keyfiyyətlər formalaşsın xarakterində. Haqqında söhbət düşəndə kimsə dodaq büzməsin, fəxrlə desinlər ki, filankəs filan işlər görüb, xətirli-hörmətli insandır. Ancaq nə badə belə xoş sözlərdən qürrələnib, qapılasan eqoistliyə. Çalış, həm özünə, ətrafına, həm də böyük dövlətimizə faydan toxunsun, zərrə qədər də olsa. Zərrəni az bilmə, dama-dama göl olar, – deyib atalar. *Xoş ətirlər saçmaq istəyən adam, gül tək xoşxasiyyət olmalı müdam* – ən həssas, vacib amildir insanda xasiyyət. Daxili aləmin xaricdən görünən üzüdür xasiyyət, qəlbdən nəğmətək süzülüb gələn şirin, sadə, səmimi sözdür xoşxasiyyət, pisliklərdən uzaq, müsbət fikirlərlə dolu əyriyə əyri deyən, düzə düzdür xoşxasiyyət. Nə xoş o insanın halına ki, xoşxasiyyətdir...

Sonuncu həmişəbahar böyük gül – "İsgəndərnamə". Adından bəlli edir özünü bu gül. Amma hər şey göründüyü kimi deyil axı. Ona görə tələsməyək hələ. Hiss etməyə çalışaq bu gülün təravətini. Söhbətin tarixi şəxsiyyətdən gedəcəyi məlumdur ilk baxışdan. Müharibələr aparmış cəsur dünya fatehi Makedoniyalı İsgəndərin bədii obrazını canlandırır gözlərimiz önündə bu gül. Və bir də görürük mərd, iradəli, ağıllı və bacarıqlı Bərdə hökmdarı Nüşabənin xarakterin, timsalında isə yenitipli dövlət başçısı, ədalətli quruluş. Müharibələrin təfsilatına yox, üstünlük verilir yunanların şərq mədəniyyətləri ilə tanışlığına, iki mədəniyyətin sintezinə. "Avesta" mətnlərini Yunanıstana göndərərək tərcümə edilib öyrənilməsini tövsiyə edən İsgəndər. Öz Vətənində görmədiyi bir çox mədəniyyət və cəmiyyətlərlə bağlı real hadisələrə həyatın möcüzələri kimi baxır İsgəndər. *Özünə ölüncə özün ol qonaq, ağac ol özündən doğur qol-budaq*, – deyir "İsgəndərnamə". Özün olmaq. Kimsəyə bənzəməmək. Ağac kimi. Heç bağçada hansısa gülün, ağacın bir-birinə bənzədiyin görmüşükmü? Təbii ki, yox, hərəsinin bir başqadır görünüşü, təravəti. Fərqlilik. Həyatda çoxlarının gerçəkləşməyən arzusudur bu xüsusiyyət. Baxmaqla kifayətlənmə, görməyə çalış, oxumaqla, öyrənməklə qalma, tətbiq etməyə can at, amma kiminsə yansıtma əksini, əsla. Niyə sənin adın çəkiləndə ağıla gəlməlidir bir başqası da? Öz cığırını özün aç ki, kimsələrə olmayasan boyunduruq. Zira, başqaları kimi, sən də dünya əşrəfisən, bir iş dalınca gedəndə öncə özünə inan. Çün həyatda ən vacib amildir inam. Səbir, dözüm, güc, qüvvət ondan ilhamlanır. *Şüşəyə öncə sən vurma daş, kəsək, qırılsa, çətindir onu düzəltmək* söyləyir bu gül. Şüşə qədər kövrək, tez sınandır insan qəlbi. Bir dəfə qırılan qəlb çətin ki, bərpa edə bilə bir də əvvəlki görkəmini. Elə isə iynəli, tikanlı sözlərdən qaç uzaq. Gözəl sözlərlə bəzə könülləri, qıran yox, birləşdirən olmağa çalış...

Ey dəryalara, dənizlərə sığmayan, dalğalara meydan oxuyan hikmət dolu söz bağçası, qədəmlərin mübarək, həmişəbahar güllərin daim belə təravətli, şux qalsın. Yüz illərdir, xərclədiyimiz, tükənməyən, bitməyən, el-el, oba-oba gəzən, dillərdə kəramət bağlayan ümmanlara sığmayan söz mülkünü halal eylə sən bizlərə. Əsrlərdən-əsrlərə, nəsillərdən-nəsillərə yol qət etdin yorulmadın, usanmadın, neçə-neçə sənətkarlar, bəstəkarlar yetişdirdin, söz üstündə binə etdin insanlığı, düşmənləri barışığa, sülhə səslədin, dostluğu möhkəmlətdin, yamanları yaxşılığa, əyriləri doğruluğa apardın sən. Moskvadan, Sankt-Peterburqdan, Daşkənddən, Təbrizdən, Tehrandan, Qahirədən, İstanbuldan, Dehlidən, Londondan, Parisdən, öz doğma ocağın Gəncədən, Bakıdan, Naxçıvandan gəlir sözlərinin müdrik sədaları. Dünyaya göz açdığın, ondan kənara çıxmadığın, doğma yurdun Gəncən, yazı da, qışı da güldür, çiçəkdir, – deyərək mübarək qələminlə vəsf etdiyin Bərdən ötən il ağır günlərini yaşadı, şər əməllərə düçar oldu. Ancaq sənin də hər zaman vurğuladığın, əxz elədiyin kimi, haqq-ədalət taptı yerini, 30 ildir, at oynadan Şər qüvvəni 44 günə məğlub etdik, xeyir şərə üstün gəldi. 2021-ci il sənin adınla bağlıdır, ey sözlə dolu könlümüzün Sultanı Nizami Gəncəvi, qədəminin işğaldan azad olan əzəli yurdumuz Qarabağımıza, blokada vəziyyətində inkişaf tarixi yazan Naxçıvanımıza, bütöv, qüdrətli Azərbaycanımıza düşərli olması diləyi ilə...

✍ **Nail ƏSGƏROV**

## Elmi konfrans keçirilib



***AMEA Naxçıvan Bölməsində böyük Azərbaycan alimi və mütəfəkkiri Məhəmməd Nəsirəddin Tusinin həyat və fəaliyyətinə həsr olunmuş elmi konfrans keçirilib.***

Bölmənin sədri, akademik İsmayıl Hacıyev konfransı giriş sözü ilə açaraq Nəsirəddin Tusi yaradıcılığına nəzər salıb. Alim bildirib ki, elmin 20-dən artıq sahəsində olduqca zəngin və fundamental tədqiqatların müəllifi olan Məhəmməd Nəsirəddin Tusi 200-dən artıq elmi əsərin müəllifidir. Qeyd olunub ki, alimin tərtib etdiyi astronomik cədvəllər, yeni bir qitənin mövcudluğu ilə bağlı bildirdiyi proqnoz və 256 şəhərin coğrafi koordinatlarını verməsi xüsusi əhəmiyyətə malikdir. Böyük alimin tarix, hüquq, fəlsəfə, əxlaq normaları, tibb, riyaziyyat, astronomiya, fizika və digər sahələrdə ərsəyə gətirdiyi əsərlər əhatə etdiyi mövzular və tədqiqatların genişliyi ilə seçilir.

Bölmənin Təbii Ehtiyatlar İnstitutunun elmi işlər üzrə direktor müavini, kimya elmləri doktoru Bayram Rzayevin "Bəşəri dühə Nəsirəddin Tusinin həyatı və fəaliyyətindən bəzi epizodlar" mövzusunda məruzəsində Nəsirəddin Tusinin həm alim, həm də ictimai xadim kimi fəaliyyətindən bəhs olunub, müasirlərinin alim haqqındakı bəzi fikirləri diqqətə çatdırılıb.

"Ordubad şəhərində yaşayan Tusi nəslinə aid epiqrafik məlumatlar" mövzusunda məruzə edən AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Hacıfəxrəddin Səfərli orta əsr Azərbaycan mədəni mühitinin yetirməsi olmuş Nəsirəddin Tusinin nəsil şəcərəsi haqqında məlumat verib.

Konfransda bölmənin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Ramiz Qasımovun "Şair və ədəbiyyatşünas Nəsirəddin Tusi" mövzusunda məruzəsi dinlənilib. Məruzəçi "Oxunması zəruri olan kitabların Siyahısı"na daxil edilən "Əxlaqi-Nasiri" əsəri ilə bağlı məlumat verib.

Batabat Astrofizika Rəsədxanasının direktoru, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Qulu Həziyev Nəsirəddin Tusinin astronomik irsi haqqında məruzəsində qeyd edib ki, Tusinin XIII əsrdə astronomiya elmində əldə etdiyi elmi nəticələr həmin dövrdə astronomik bilikləri inkişaf etdirməklə yanaşı, bu elmin sonrakı inkişafında da çox mühüm rol oynayıb.

Konfransda Marağa rəsədxanası, orada istifadə olunmuş bəzi cihazlar və alimin elmə gətirdiyi yeniliklərdən ibarət slayd nümayiş etdirilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Məktəblilər beynəlxalq müsabiqədə uğur qazanıb

Naxçıvan şəhər ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan şagirdlərin elmi axtarışlara sövq edilməsi, elmi potensialının artırılması, tədqiqatçılıq bacarıqlarının inkişaf etdirilməsi məqsədilə "Sabahın tədqiqatçıları" layihəsi davam etdirilir.

Layihə çərçivəsində iştirakçıların müxtəlif təşəbbüslərinin stimullaşdırılması, asudə vaxtlarının səmərəli keçirilməsinin təşkili, əldə etdikləri elmi yeniliklərlə müxtəlif beynəlxalq səviyyəli müsabiqə, konfrans və olimpiadalarda iştirakı təmin edilir.

2020-ci ilin noyabr ayından yenidən başlanan layihənin uğurları davam edir. AMEA Naxçıvan Bölməsinin Təbii Ehtiyatlar İnstitutunun Mineral xammalın kimyası və texnologiyası laboratoriyasının böyük elmi işçisi, kimya üzrə fəlsəfə doktoru, dosent Əhməd Qarayevin rəhbərliyi ilə Naxçıvan Qızlar Liseyinin XI sinif şagirdləri Səma Abdullayeva və Bəhriyyə Mustafayeva Moskvada Pedaqoji layihələrin elm-təhsil mərkəzində yerləşən "Rusiya Federasiyası Pedaqoji layihələr Akademiyası"nın təşkil etdiyi "Mənim elmdə addımım" adlı şagird və tələbələr üçün ümum-Rusiya distant konfransında "Naxçıvan daşduzundan tibbi natrium xloridin alınması" adlı məqaləsi sertifikata layiq görülüb.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*Əfsanəyə dönən ömürlər*

## Taleyinə şəhidlik qismət olan qeyrətli Vətən oğlu

***Gedirik Naxçıvan şəhərinin Tumbul kəndinə, şəhid İbrahim İbrahimovun ailəsi ilə görüşməyə. Qəlbimdəki təlatüm bambaşqa duyğular yaradır məndə. Hər şeydən əvvəl, qürurluyam ki, Naxçıvan torpağı belə vətənpərvər, igid, qeyrətli oğullar yetirir. Digər tərəfdən, "şəhidlik" adlı uca məqama yüksələn bu Vətən övladının ailəsini danışdırmaq, qanayan yaralarının qaysağını yenidən qanatmaq mənim üçün də çətindir. Nə qədər çətin olsa da, şəhidlərimizin həyat hekayələrini oxucularla bölüşməyə çalışırıq.***



Artıq İbrahimin xalasıgilin evinə çatmışıq. O, uşaqlıq çağlarını nənəsi və xalasının yanında keçirib. Atası Şərur rayonunun Alışar kəndindən olan Etibar İbrahimov ömrünü-gününü ancaq işləməyə, evinə bir tikə çörək gətirməyə sərf edib. İbrahimin anası iki il əvvəl şəkər xəstəliyindən vəfat edib. Elə bil ana da duymuşdu övladının taleyinə yazılan günü, ondan əvvəl dünyasını dəyişdi, gözünün ağı-qarası bircə oğlunun ölümünə şahid olmadı. Evə daxil oluram, ilk baxışdan şəhid evi olduğu bəllidir. Evə dərin sükut çöküb, divarlar da bu qəmə, kədərə etinasız qala bilmir, İbrahimin yoxluğu hər addımda hiss edilir. Digər otaqda stolun üzərinə düzülən şəkillər gözümə dəyir. Yaxınlaşıram, şəhidimizin şəkillərinə baxıram tək-tək. Kəlmələr boğazımda düyünlənir. Ömrünün bahar çağında igid oğul itirmək nə qədər də çətindir. İbrahimin atası Etibar müəllim: – Qızım, İbrahim getməsəydi, onun kimi cəsur oğullar yollanmasaydı müharibəyə, bəs kim alacaqdı torpaqlarımızı yağı düşməndən,– deyir. Doğrudur, 30 il həsrət, göz yaşı, Qarabağ nisgili hərbi qulluqçularımız, müharibəyə könüllü yollanan İbrahim kimi cəsur oğullarımız doğma torpaqlarımız uğrunda son damla qanlarınadək mərdliklə döyüşərək şəhid oldular, əbədilik qazandılar...

*Ata, mənimlə fəxr edəcəksiniz*

Ata üçün çətindir itirdiyi bircə oğul övladı haqqında danışmaq. "Oğlum Birinci Qarabağ müharibəsi zamanı, ölkəmiz üçün çox çətin bir dövrdə – 1992-ci il fevralın 18-də doğulub", – deyir Etibar İbrahimov. Gənc yaşlarından işləyib, çalışqan, vətənpərvər uşaq olub. Ürəyindəki Allah sevgisi çox böyük idi, namaz qılırdı, məscidə gedirdi. Bir gün gəldi ki, ata, sənədlərimi toplayıb hərbiyə gedəcəyəm. Həmin vaxt müəyyən səbəblərə görə alınmadı, amma qəlbində Vətən keşiyində dayanmaq arzusunun qaldığını görürdüm. Ötən il yenidən müraciət etdi, müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçularının hazırlığı kursunda iştirak etdi, könüllü olaraq oktyabrın 18-i müharibəyə yollandı. Getməzdən altı saat əvvəl evə gəlmişdi. Elə hey deyirdi ki, mənimlə fəxr edəcəksiniz. Şərəfli döyüş yolu keçən oğlum yaralıları döyüş meydanından çıxararkən düşmən gülləsinə tuş gəlir. Döyüş yoldaşları deyir ki, qadağan olunmuş silahla sol tərəfindən vurulur. Hələ həmin dəqiqə də şəhadətə qovuşur. Hələ müharibə olmamışdan əvvəl də evdə söhbəti ancaq Mübariz kimi qeyrətli igidlərimizdən, qəhrəmanlarımızdan salar, mən fəxr edərəm ki, elə şəhidlik adını alam deyərdi.

Komandirləri, döyüş yoldaşları deyirlər ki, İbrahim bambaşqa idi. Böyüklə böyük, kiçiklə kiçik idi. Cəsur idi, mərd idi. Sonuncu dəfə oktyabrın 29-u danışdıq oğlumla. Mənə çox dedi ki, ata, haqqını halal elə... Allah bütün şəhidlərimizə rəhmət eləsin, İbrahimin itkisi mənim üçün ağırdır, tək təskinliyim azad edilən Vətən torpaqlarıdır.

*Övlad deyil, elə bil mələk idi*

Məhsəti Salmanova İbrahimin uşaqlıqdan ən yaxın dostu, sirdaşı olub. Onun yaxşı xüsusiyyətlərindən danışan nənə deyir: – Neçə nəvəm var, ancaq İbrahimin tayı-bərabəri heç yerdə yox idi. İbrahim uzun illərdən sonra ataanasına Allahın verdiyi şirin pay oldu. O bizim yanımızda böyüyüb, burada məktəbə gedib. Bir sözümü iki eləməzdi. Qanacaqlı, zarafatcıl, hamıya qarşı mehriban idi. Övlad deyildi, elə bil mələk idi. Sən mənim aslan, qeyrətli nənəmsən deyərdi həmişə. Bir gün dedi, nənə, yeddi ildir, bir qızı istəyirəm elçiliyə gedə bilərsən? Aldıq qızı, beş-altı ay çəkmədi toyunu elədik. Ondan qabaq hərbiyə yazılmaq istəyirdi. Toyundan bir il sonra getdi, şəhidlik xəbəri gəldi. Bu da İbrahimin qisməti idi. Torpaq uğrunda şəhid oldu kişi kimi. Dövlətimiz, Prezidentimiz sağ olsun. Digər şəhidlərimiz kimi, onu da öz yurdunda hörmətlə-izzətlə torpağa tapşırdılar, bütün Naxçıvan İbrahimi uca tutdu.

*Əbədi həsrət, əbədi gediş*

İbrahimin həyat yoldaşı Gülsüm İbrahimova danışır: – Toyda bir-birimizi görüb, tanış olmuşduq. Düz yeddi il İbrahim



də, mən də sözümüzə, andımıza, sevgimizə sadiq olduq. Allah dualarımızı qəbul etdi. Bir il iki ay idi ailə qurmuşduq. Müharibəyə getməzdən qabaq evə gəlmişdi. Deyib-gülürdü, hamı ilə halallaşırdı. Deyirdi, birdən gedərəm qayıtmaram. Qapıdan çıxanda atama dedi ki, bu yolun gedişi də var, dönüşü də. Gəlsəm heç, gəlməsəm, Gülüşü sizə əmanət edirəm. Gözüm arxada qalmasın. Elə bil toy-bayrama gedirdi, müharibəyə yox. Tez-tez zəng edirdi. Deyirdi, bu yerlərdən cənnət ətri gəlir, qayıdım gəlim, sizi də gətirəcəyəm buraları görəsiniz. Oktyabrın 30-u sonuncu dəfə zəng etdi. "Hamımızla bir-bir danışdı, dualarınızı əsirgəməyin bizdən", – dedi. Nə biləydim, yarım saat sonra döyüşdə qəfil güllə ona tuş gələcək, əbədi bir həsrətə qərq edəcək məni. Mən təkcə həyat yoldaşımı yox, həm də dərd ortağımı, sirdaşımı itirmişəm. Deyirdi, həsəd apararam o adama ki cümə günü şəhid kimi dünyadan köçə. Elə arzusu da gerçək oldu, cümə günü o uca məqama yüksəldi. Müsahibim boynundan asılan üzüyə işarə edərək deyir ki, bu, İbrahimin döyüş zamanı da barmağında olan nişan üzüyümüzdür. Ondan mənə yadigar qalan, xatirələrimizin yeganə nişanəsi bu üzüyü üzərimdə gəzdirirəm. Bununla onun ruhunun həmişə mənimlə olduğunu hiss edirəm. Demək olar ki, hər gün İbrahimin məzarına gedirəm. Saatlarla onunla söhbət edirəm, inanıram ki, məni eşidir. Axı şəhidlər ölmür, Peyğəmbərimiz də buyurub ki, onlara ölü deməyin, onlar ölü deyillər. İbrahim hamımızın qəlbində əbədi yuva qurub.

*Onu da qeyd edək ki, dövlət başçısı cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilən İbrahim İbrahimov, eləcə də torpaqlarımızın azadlığı uğrunda canlarından keçən digər şəhidlərimiz həmişə qəlbimizdə yaşayacaq, onların qəhrəmanlığı hər nəslə örnək olacaq.*

✍ **Güntac ŞAHMƏMMƏDLİ**

***İnsan həyatında, təsərrüfatında mühüm rol oynayan torpağın əsas xassəsi onun münbitliyidir. Münbitlik torpaqda bitkinin normal yaşaması və məhsul yetirməsindən ötrü qida elementləri və su, onun kök sistemini hava və istiliklə təmin etmək qabiliyyətidir. Torpağın tərkibində su çox olduqda bataqlığa çevrilir, mineral duzlar çox olduqda isə şoranlaşır, əkin üçün yararsız olur. Torpaqdan düzgün istifadə edilməsinin və onun mühafizə olunmasının böyük əhəmiyyəti vardır. Bütün sərvətlər tükənə bilər. Amma torpaq ən qiymətli sərvət olaraq böyük iqtisadi əhəmiyyətini hər zaman göstərir. Torpaq ona düzgün qulluq edildikdə daha böyük gəlir verir.***

*Mütəxəssis sözü*

## Torpaqların münbitliyinin təmin olunmasında bələdiyyələrin də üzərinə mühüm vəzifələr düşür

Kənd təsərrüfatı məhsulları istehsalının artırılmasının vacib şərtlərindən biri də bütün mülkiyyət növləri üzrə, o cümlədən bələdiyyə mülkiyyətində olan kənd təsərrüfatı təyinatlı torpaq sahələrindən səmərəli və məqsədyönlü istifadə edilməsidir. Məhz bu səbəbdən torpaqlardan səmərəli istifadə edilməsi, torpaqların kənd təsərrüfatı dövriyyəsindən əsassız çıxarılmasına yol verilməməsi, onların zərərli təbii antropogen təsirlərdən qorunması, habelə torpaqların münbitliyinin bərpası və artırılması məqsədilə torpaqların mühafizəsi ilə bağlı məsələlər qanunvericiliklə tənzimlənibdir. Bu sahədə ölkəmizdə zəruri hüquqi baza yaradılmış, 1999-cu il 30 dekabr tarixdə "Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuşdur. Həmin qanun dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaqların münbitliyinin bərpasının, artırılmasının və mühafizəsinin hüquqi əsaslarını müəyyən etmişdir.

Bələdiyyə torpaqlarının idarə edilməsinin əsas prinsiplərindən biri də torpaqların münbit qatının bərpası, artırılması, mühafizəsi, təbii və antropogen təsirlərdən qorunmasıdır. Bələdiyyə torpaqlarından səmərəli istifadə olunması və onların mühafizəsi sahəsində əsas vəzifə icarəyə verilmiş bələdiyyə torpaqlarından səmərəli istifadə edilməsi və torpaqların münbitliyinin artırılması sahəsində qanunvericiliyin tələblərinə əməl etməkdir. Qeyd edək ki, torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində idarəetmə sisteminə müvafiq icra hakimiyyəti orqanları, bələdiyyələr, torpaq mülkiyyətçiləri, istifadəçiləri və icarəçiləri daxildir. Qeyd edilən qanunla torpaqların münbitliyinin təmin olunması sahəsində torpaq mülkiyyətçilərinin, istifadəçilərinin və icarəçilərinin vəzifələri müəyyən edilmiş, bələdiyyələrin də üzərinə mühüm vəzifələr qoyulmuşdur.

"Torpaqların münbitliyi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə, həmçinin bələdiyyə mülkiyyətində olan torpaqların da münbitliyinin bərpasının, artırılmasının və mühafizəsinin hüquqi əsasları müəyyən edilmişdir. Belə ki, həmin qanuna görə bələdiyyələr torpaqların münbitliyinin bərpası, artırılması və mühafizəsi sahəsində proqramlar hazırlamalı və icrasına nəzarət etməli, torpaqların münbitliyinin təmin olunması sahəsində üzərlərinə düşən vəzifələri yerinə yetirməlidirlər.

Muxtar respublikada torpaqların münbitliyinin artırılması ilə bağlı məsələlər də, xüsusilə diqqətdə saxlanılır və bununla bağlı tədbirlər həyata keçirilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair Tədbirlər Planı" təsdiq edilmişdir. Torpaq ehtiyatlarından səmərəli istifadə edilməsi, torpaqların əkin dövriyyəsinə qatılması muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin olunmasına mühüm töhfələr verir.

Torpaqların münbitliyinin təmini istiqamətində əsas məsələlərdən biri də əkin yerlərinin mühafizəsidir. Əkinəyararlı torpaq sahələrinin münbitliyinin qorunması, ekoloji mühitə vurulan zərərin qarşısının alınması və kənd təsərrüfatında məhsuldarlığın yüksəldilməsi sahəsində işin gücləndirilməsi üçün Torpaq Məcəlləsinə və "Torpaqların münbitliyi haqqında" Qanuna əkin yerlərinin yandırılmasının qadağan edilməsi ilə bağlı yeni norma əlavə olunmuşdur. Eyni zamanda İnzibati Xətalar Məcəlləsində bu tələbin pozulması ilə bağlı fiziki və hüquqi şəxslər, habelə vəzifəli şəxslər üçün inzibati məsuliyyət müəyyən edilmişdir.

Taxılçılıq təsərrüfatlarında biçin işləri başa çatdıqdan sonra kövşənin (taxıl əkilmiş yer, zəmi) yandırılması kənd təsərrüfatına yararlı torpaq sahələrinin üst münbit qatının korlanmasına, əkin yerlərində torpaqların qida maddələri balansının pozulmasına, yaxınlıqda yerləşən digər sahələrdə, yaşayış məntəqələrində və meşə ərazilərində yanğın təhlükəsinin yaranmasına, mühəndis-kommunikasiya sistemlərinin sıradan çıxmasına, habelə hüquqi və fiziki şəxslərə məxsus əmlakın məhv olmasına şərait yaradır.

Əkin yerlərinin mühafizəsinin ölkənin ərzaq təhlükəsizliyinin təmin olunması baxımından müstəsna əhəmiyyəti nəzərə alınaraq bununla bağlı qanunvericilikdə müəyyənləşdirilmiş vəzifələrin öyrənilərək tətbiq edilməsini bələdiyyələr həyata keçirməlidirlər. Bununla əlaqədar əhali arasında torpaqdan təyinatı üzrə, səmərəli və müəyyən olunmuş rejimə uyğun istifadə edilməsi ilə bağlı maarifləndirmə işlərinin aparılması, habelə torpağın münbit qatının korlanmasına yol verilməməsi ilə bağlı qanunvericiliklə müəyyən edilmiş tədbirlər də bələdiyyələr qarşısında mühüm vəzifələr qoyur.

**Xəyal EYVAZOV**
***Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin əməkdaşı***

## Sürücülərə yeni lisenziyalar verilir

*Naxçıvan şəhərindəki Avtovağzal Kompleksində avtomobil nəqliyyatı ilə sərnişindaşıma xidməti göstərən sürücülərə lisenziyaların verilməsi ilə bağlı keçirilən seminar-müşavirəni Dövlət Nəqliyyat Xidmətinin şöbə müdiri Elxan Novruzov açıb.*



Xidmətin sektor müdiri Zaur Əliyev çıxışında qeyd edib ki, Ali Məclis Sədrinin 2018-ci il 22 oktyabr tarixli Fərmanına uyğun olaraq Dövlət Nəqliyyat Xidməti haqqında əsasnaməyə əlavə və dəyişikliklər edilib, 2018-ci il noyabr ayının 1-dən etibarən avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyətinə lisenziyanın verilməsinə başlanılıb. Bu məqsədlə Dövlət Nəqliyyat Xidmətinin əməkdaşları tərəfindən sürücülərlə lisenziyalaşdırmanın şərtləri və lisenziyanın alınması üçün lazım olan sənədlər barəsində davamlı maarifləndirici söhbətlər aparılır.

Vurğulanıb ki, 2020-ci ilin noyabr ayından yeni lisenziyanın verilməsinə başlanılıb, ötən müddətdə 400-ə yaxın sahibkar yeni lisenziyalarla təmin olunub. Avtomobil nəqliyyatı ilə sərnişin daşınması fəaliyyət növü üçün verilən lisenziyanın qüvvədəolma müddəti 1 ildir. Verilmiş lisenziya əsasında sərnişindaşımanı həyata keçirən nəqliyyat vasitələri lisenziya kartı ilə təmin edilir.

Sonra bir qrup sahibkara yeni lisenziya blankları və kartları təqdim olunub.

**Xəbərlər şöbəsi**


*İtmişdir*

Şərur rayonu, Zeyvə kəndində yaşamış İsmayılov Amil İsmayıl oğlunun adına verilmiş JN-1468 inventar nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, 35-ci məhəllə 35A ünvanında Məmmədov Kərim Bilal oğlunun adına olan 12705 inventar nömrəli texniki pasport və 05.05.2001-ci il tarixli çıxarış itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 148